**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**BEHNAZ ASSADOLLAH PAKDEL**

# UŞAQLARDA MOTIVASIYANIN INKIŞAFININ PSIXOLOJI XÜSUSIYYƏTLƏRI

**6107.01. – Ümumi psixologiya**

**Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2 0 1 6**

İş Bakı Dövlət Universitetinin Psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: psixologiya üzrə elmlər doktoru,
professor **Əkbər Salman oğlu Bayramov**

Rəsmi opponentlər: psixologiya üzrə elmlər doktoru, professor
**İsfəndiyar Məmmədhüseyn oğlu Novruzlu**

psixologiya üzrə fəlsəfə doktoru,
dosent **Nurəngiz Tofiq qızı Rzayeva**

Aparıcı təşkilat: **Azərbaycan Dillər Universitetinin**
**Psixologiya kafedrası**

Müdafiə "_29___" "__06_______" 2016-cı il saat___da Bakı Dövlət Universitetinin nəzdində psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan**:** AZ 1148, Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23, II korpus, aidutoriya 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.
Avtoreferat"____" "______________" 2016-cı ildə göndərilib.

FD.02.014 Dissertasiya şurasının
elmi katibi, psixologiya üzrə
fəlsəfə doktoru, dosent **Rəşid Vəkil oğlu Cabbarov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Müasir dövrdə cəmiyyətin sürətli inkişafı fonunda insanların baş verən dəyişikliklərə uyğunlaşması və pozitiv fəaliyyət göstərməsi üçün onların fəallığını təmin edən amillərə diqqət yetirliməsi günün aktual problemlərindən biridir. Xüsusilə təhsil sistemində islahatların aparıldığı bir dövrdə uşaqlarda motivasiyanın fəallaşdırılması üçün onun psixoloji mexanizmlərinin və qaununauyğunluqlarının müəyyənləşdirilməsi vacibdir.

Faktlar göstərir ki, son onilliklərdə təhsildə motivasiya sisteminin və davranış tiplərinin öyrənilməsinə daha ciddi yanaşırlar.

Uşaqlarda təhsil motivasiyasının inkişafı onların şəxsiyyət kimi formalaşmasına hərtərəfli təsir göstərməklə yanaşı, onların dəyərlər sisteminin təşəkkülünə də zəmin yaradır. Pedaqoji prosesdə uşaqlarda təlim motivlərinin formalaşdırılması onların peşəyönümünə təsir göstərir, ən əsası isə potensial imkanların düzgün istiqamətləndirilməsinə zəmin yaradır. Məhz motivasiyanın inkişafının psixoloji qanununauyğunluqlarını tədqiq etməklə uşaqlarda uğursuzluq motivlərinin yaranmasının qarşısını almaq, onları daha səmərəli fəaliyyətə stimullaşdırmaq olar.

Bununla yanaşı motivasiyanın tədqiqi uşaqların inkişaf prosesinə koqnitiv və motivləşdirici amillərin təsir dərəcəsini müəyyən etməyə, motivasiyanın aşağı düşməsi hallarında onun yüksəldilməsinin qayğısına qalmağa imkan verən metodoloji prinsiplər işləyib hazırlamağa şərait yaradır.

Aparılmış tədqiqatlar göstərir ki, şagirdlərin fərqli vəziyyətlərdə fərqli motivasiya istiqamətlərinə üstünlük verməlləri bir sıra amillərlə şərtlənmişdir ki, həmin amillərin araşdırılması təlim fəaliyyətinin optimal və effektiv təşkili üçün vacib şərtlərdən biridir.

Bu baxımdan motivasiya və onun xarakterik cəhətləri təlim tapşırıqları və fəaliyyətin məzmunu ilə əlaqədar olaraq nəzərdən keçirilməli, fərdin müxtəlif vəziyyətlərdə motivasiyasının təzahür xüsusiyyətləri araşdırılmalıdır. Bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, motivasiya insan fəaliyyətinin əsasını təşkil edir və onsuz demək olar ki, insanın heç bir iradi fəaliyyəti baş tuta bilməz. Bu baxımdan uşaqlarda motivasiyanın inkişaf xüsusiyyətlərinin araşdırılması bir sıra məsələlərin həllinə yardımçı olur və ciddi elmi-praktik əhəmiyyət kəsb edir. Motivasiya sahəsinin öyrənilməsinə həsr olunmuş tədqiqatların konkret etnik mühitinin yetərsizliyini, o cümlədən qeyd edilən cəhətləri nəzərə alıb “ Uşaqlarda motivasiyanın inkişafinın psixoloji xüsusiyyətləri”nin tədqiqini məqsədəuyğun hesab etmişik.

**Mövzunun işlənmə səviyyəsi.** Uşaqlarda motivasiya sisteminin inkişafinın psixoloji xüsusiyyətlərinin tədqiqinə nəzər saldıqda görürük ki,

bu sahədə istər ümumi psixologiyada, istər pedaqoji psixologiyada, istərsə də sosial psixologiyada sanballı tədqiqatlar aparılmışdır.

Aparılmış tədqiqatların təhlilindən aydın olur ki, XX əsrdə psixologiyada motivasiya problemi əsasən şəxsiyyət və onun təlim-tərbiyə prosesində formalaşması konteksində öyrənilmişdir. Bu sahədə A.Maslonun, H.Hekhauzenin, V.Haymerin, Z.Freydin, E.Fromun, K.Hornin, A.Adlerin, K.Yunqun, L.S.Vıqotskinin, A.N.Leontyevin, A.T.Basovun, A.K.Markovanın və başqalarının tədqiqatlarına rast gəlmək olur.

Azərbaycan respublikasında da bu sahədə yetərincə tədqiqatlar aparılmışdır (B.H.Əliyev, Ə.S.Bayramov, K.R.Əliyeva, S.İ.Seyidov, Ə.Ə.Əlizadə, M.Ə.Həmzəyev, Ə.Ə.Qədirov, R.H.Qədirova, E.İ.Şəfiyeva, R.İ.Əliyev, Ə.T.Baxşəliyev, G.K.Qurbanova və b.). Bu tədqiqatlarda motivasiya əsasən təlim-tərbiyə prosesində öyrənilmiş, motivasiya yaratmağın yol və vasitələri, eləcə də stimullaşdırıcı tapşırıqlar işlənib hazırlanmışdır.

İran İslam Respublikasının tədqiqatçısı Əlireza Yusefi və həmkarları 2009-cu ildə tələbələrinin təhsil sahəsində inkişafına təhsil motivasiyasının təsirini öyrənmək üçün İsfəhan Tibb Universitetində eksperimentlər aparmışlar. Tədqiqat zamanı təhsil motivasiyası ilə əsas fəndən və digər fənlərdə toplanmış balların orta qiyməti arasında ciddi əlaqənin mövcud olduğu müşahidə edilmişdir. Ümumilikdə tədqiqatın nəticələrindən aydın olmuşdur ki, tələbələrin təhsil sahəsində akademik qabiliyyətlərinin inkişafı ilə motivasiyanın müxtəlif cəhətləri arasında qarşılıqlı əlaqə mövcuddur. Lakin bütün bunlarla yanaşı uşaqlarda motivasiyanın inkişaf xüsusiyyətləri konkret tədqiqat obyekti kimi seçilməmişdır ki, bu da problemin bir daha aktual olduğundan xəbər verir.

**Tədqiqatın obyekti** uşaqların təhsil motivasiyasının inkişaf xüsusiyyətləridir.

**Tədqiqatın predmeti** uşaqların yaş xüsusiyyətlərindən asılı olaraq təhsil motivasiyasına təsir edən sosial-psixoloji amilləridir.

**Tədqiqatın məqsədi** sosial-psixoloji amillərin şagirdlərin təhsil motivasiyasına təsirini öyrənmək və bu məqsədlə müvafiq psixoloji-pedaqoji ədəbiyyatı təhlil etmək, xüsusi metodikaların köməyi ilə şagirdlərdə təhsil motivasiyasının inkişaf dinamikası və xüsusiyyətlərini araşdırmaq, eləcə də ailədaxili amillərin təsir dərəcəsini müəyyən etməkdən ibarətdir.

**Tədqiqatın fərziyyəsi**. Uşaqlarda təhsil motivasiyasının təzahürü və formalaşması bir sıra amillərlə yanaşı şagirdlərin daxil olduğu ailə mühitindən, ailədaxili, məktəbdaxili amillərdən, habelə mövcud sosial-iqtisadi amillərin təsirindən də asılıdır. Valideyn və müəllimlər tərəfindən şagirdlərin fərdi-psixoloji xüsusiyyətlərinə, həmçinin təhsil motivasiyasına xüsusi diqqət yetirilməsi təhsil müvəffəqiyyətini təmin edə bilərlər.

**Tədqiqatın vəzifələri**. Qarşıya qoyulmuş məqsədi həyata keçirmək üçün aşağıdakı vəzifələrin həlli nəzərdə tutulmuşdur:

-motivasiya anlayışının psixoloji mahiyyətini müəyyənləşdirilməsi;

- psixoloji və pedaqoji ədəbiyyatlarda motivasiyanın inkişaf xüsusiyyətlərinin araşdırılması;

- uşaqların şəxsi xarakter daşıyan motivlərin təhlilini aparılması;

- uşaqlarda təhsil motivasiyasının formalaşmasına təsir göstərən amillərin öyrənilməsi;

- uşaqlarda təhsil motivasiyasının formalaşması yol və vasitələrinin göstərilməsi.

**Tədqiqatın metodoloji əsasları və metodları**. Tədqiqatda uşağın motivasiyasının inkişaf qanunauyğunluqları haqqında ümumpsixoloji müddəalara və konsepsiyalara istinad edilmişdir.

Tədqiqat prosesində təhsil motivasiyasının inkişaf xüsusiyyətlərini aşkara çıxarmaq üçün müxtəlif metodlardan istifadə edilmişdir. Tədqiqatın gedişində müşahidə, anket sorğusu və eksperimentdən, eləcə də «İstiqamətin təhlili» metodikasından, Harterin və Bekin anket sorğularından, Hermansın "İnkişaf motivasiyası" anket sorğusundan və «Kronbax alfa» yoxlama üsulundan istifadə edilmişdir. Anket sorğuları Bakı şəhərindəki müxtəlif məktəbləri əhatə etməklə 285 nəfər şagirdlər arasında aparılmışdır.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiya işində mövcud tədqiqatlardan fərqli olaraq uşaqlarda motivasiya sisteminin, xüsusilə təhsil motivasiyasının inkişaf dinamikasının xüsusiyyətləri müəyyən edilmiş, təhsil motivasiyasının inkişafına təsir edən amillər qruplaşdırılmış, aparılmış tədqiqatlar sistemləşdirilmişdir.

İlk dəfə olaraq bu işdə:

- Ailədaxili və məktəbdaxili amillərin şagirdlərin motivasiya sisteminin inkişafına təsiri aşkarlanmış, bu amillərin təsiri fonunda motivasiyasının inkişafında ortaya çıxan çətinliklər müəyyənləşdirilmiş;

- Ailədaxili, məktəbdaxili, şəxsi və sosial-iqtisadi amillər sisteminin təhsil motivasiyasına inkişafetdirici təsiri aşkarlanmış, motivasiyanın inkişaf etdirilməsinin yol və vasitələri göstərilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

- Sosial-iqtisadi amillər (atanın peşəsi və təhsil səviyyəsi, ananın peşəsi və təhsil səviyyəsi, ailənin gəlir səviyyəsi) şagirdin inkişaf motivasiyasının güclənməsinə, yaxud zəifləməsinə güclü təsir göstərmir.

- Depressiya səviyyəsi ilə şagirdlərin inkişaf motivasiyası arasında əhəmiyyətli əlaqə vardır. Depressiya səviyyəsi artdıqca motivasiya səviyyəsi azalır və ya əksinə motivasiya səviyyəsi aşağı düşdükcə depressiya güclənir.

- Məktəbdaxili amillərin (təhsil mühitinin standartlara uyğun olması, dərs vəsaiti və təlim şəraitinin əlverişliliyi, müəllimlərin tədris üsulu) yüksək

səviyyədə olması depressiya səviyyəsinin azalmasına, bu amillərin zəifliyi və ya standartlara uyğun olmaması isə əksinə şagirdlərdə depressiya səviyyəsinin artmasına gətirib çıxarır.

- Ailədaxili amillərin təsiri yaxşılaşdıqca yəni, effektiv təhsil mühiti yaradıldıqda, ailədaxili situasiyalarda müsbət psixoloji iqlim formalaşdırdıqda, şagirdlərinn aldığı qiymətlərə həssas yanaşıldıqda onun təlimə motivasiyası yüksəlir.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Tədqiqatdan alınan nəticələr ümumi və pedaqoji psixologiyanı elmi müddəalarla zənginləşdirir, məktəblərdə təlimin keyfiyyətinin yüksəldilməsində təhsil motivasiyasının inkişafının yeni yol və vasitələrinin müəyyənləşdirilməsinə zəmin formalaşdırır. Əldə edilmiş nəticələr uşaqlarda motivasiyanın inkişaf erdirilməsinə imkan verən tövsiyələrin işlənib hazırlanmasına şərait yaradır.

**Tədqiqatın praktik əhəmiyyəti.**Tədqiqatın nəticələrindən ailədə uşaqların məktəbə hazırlığı prosesində, məktəbdə təhsilin səmərəli təşkilində, uşaqlarda motivasiyanın inkişaf etdirilməsi işində, habelə ali məktəblərdə seçmə fənlərin tədrisində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası**. Dissertasiyanın nəticələri BDU-nun Psixologiya kafedrasının elmi seminarında, respublika elmi-praktik konfranslarında müzakirə və məruzə edilmişdir. Eyni zamanda, dissertasiya işinin nəticələri müəllifin müvafiq məqalə və tezislərində öz əksini tapmış və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiyanın quruluşu**. Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, obyekti, predmeti, fərziyyəsi, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, elmi yeniliyi və müdafiəyə təqdim olunan əsas müddəalar şərh olunur.

Dissertasiya işinin **“Uşaqlarda motivasiya sistemi və onun tədqiqi istiqamətləri”** adlanan birinci fəsli iki yarımfəsildən ibarətdir.

Dissertasiyanın I fəslinin **“Motivasiya anlayışının mahiyyəti”** adlanan birinci yarımfəslində motivasiya təbii bir fenomen olaraq situasiya (mühit və mühitdən gələn stimullar), psixi halət (orqanizmin daxili vəziyyəti), məqsəd (davranışın məqsədi, istək və yanaşma) və vasitə (məqsəd nail olmaq vasitələri) kimi amillərin konteksindən araşdırılır. Burada qeyd edilir ki, insanlar öz məqsədlərinə, tələbat və instinktiv istəklərinə nail olmaq üçün zəruri motivasiyaya malik olmalıdırlar. Şagirdlər və tələbələrə münasibətdə isə təhsil sahəsində inkişaf motivasiyası xüsusi əhəmiyyət kəsb edir. Bu motivasiyaya malik olan tələbə və şagirdlər təhsil fəaliyyətini uğurla

bitirmək, əlaqədar məqsədlərə nail olmaq və lazımı elmi səviyyəyə yüksəlmək üçün fəaliyyət göstərirlər. Məhz motivasiya sayəsində onlar təhsil sahəsində qarşılarına qoyduqları məqsədlərinə nail olurlar. Aparılmış tədqiqatların təhlilindən aydın olur ki, motivasiya insanların davranış səbəblərini aşkara çıxarır və onların fəaliyyət formasını müəyyən edir. Motivasiyadan qaynaqlanan davranış məqsədyönlü, davamlı və daha həvəslə həyata keçən davranış səciyyəsi daşıyır.

Bu yarımfəsildə motivasiyanın tədqiqinin tarixi aspektləri araşdırılır, bu sahədə aparılmış tədqiqatlara xüsusi diqqət yetirilir. Qeyd olunur ki, motivasiya anlayışına qədim Yunan filosofları Sokrat, Platon və Aristotelin əsərlərində rast gəlinir. Platon motivasiya ilə əlaqədar qida, hissiyyat və məntiq göstəricilərindən ibarət bir ierarxik ardıcıllığın mövcudluğunu qeyd edirdi.

Lakin o, həmin təhlilində daha fərqli terminologiyadan istifadə edirdi. Onun fikrincə, qida və hissiyyat bədənlə əlaqədardır. Qida fiziki inkişaf və rahatlıq üçün hissiyyat isə ağrı və həzz kimi hissləri yaşamaq üçün motivasiyanın yaranmasına səbəb olurlar. Bu ikisi birlikdə qeyri-məntiqi motivasiyanın əsasını təşkil edirlər. Məntiq hissəsi isə ruhun bütün rasional cəhətlərinə şamil edilir və təfəkkür ilə əlaqədardır. Bütün bunlar rasional mahiyyətə malik olub iradəyə əsaslanır və iradənin bütün göstəricilərini özündə mərkəzləşdirir.

Qeyd olunur ki, motivasiya-latın mənşəli söz olub "təhrik" mənasını ifadə edir. Latın dilində motivasiya həm də hərəkət etmək anlamında işlədilmişdir. Motivasiya birbaşa müşahidəsi mümkün olan konkret bir hadisə deyil. Bu əslində davranışın müxtəlif cəhətlərinin tərkibi kimi izah edilə bilər.Davranışın iki cəhətini motivasiya termini ilə izah etmək olar: birinci, davranışın digər bir rəftar və yaxud fəaliyyətə yönəlməsi və müəyyən enerji məsrəf edilərək həyata keçirilməsi. Başqa sözlə davranışın məqsədyönlü olması onun motivə olduğunu göstərir. İkincisi, fəaliyyətin intensivliyinin və enerjinin səviyyəsinin əvvəlki vəziyyətdən fərqli olması. Deməli motivasiya anlayışı iki fərqli mənanı ifadə edir: insanı aktivləşdirən amil və müəyyən tip fəaliyyəti digər fəaliyyət formalarından üstün edən amil. Ümumiyyətlə,tədqiqatlardan aydın olur ki, motivasiya anlamına müxtəlif rakurslardan yanaşılmış və müxtəlif təriflər verilmişdir:

1) Motivasiya insanları təşkilat daxilində müəyyən davranış və rəftara məcbur edən amil yaxud vəziyyətdir.

2) Motivasiya yönəldən, istiqamətləndirən, davranışın davamlılığına səbəb olan və enerji yaradan bir amildir.

3) Motivasiya müəyyən bir fizioloji yaxud psixoloji tələbatla başlayan bir prosesdir.

4) Motivasiya fəaliyyətə təhriklə bağlı proseslərin məcmusu olub insan

davranışının hərəkətə gəlməsinə, istiqamətlənməsinə, möhkəmlənməsinə və müəyyən məqsədə doğru yönəlməsinə səbəb olur.

Psixoloqlar motivasiyanın intensivlik və istiqamət cəhətini xüsusi vurğulayırlar: Başqa sözlə motivasiya insanı müəyyən bir davranışa yönəldən amillər məcmusudur.

Dissertasiya işinin I fəslinin "**Özünümüəyyənləşdirmə nəzəriyyəsində motivasiyanın inkişafı**" adlanan ikinci yarımfəslində özünümüəyyənləşdirmə nəzəriyyəsininin istiqamətləri və tələbatların ödənilməsininin əsas məsələləri şərh olunur. Hesab edilir ki, bir neçə psixoloji ehtiyacın ödənilməsi daha səmimi münasibətlər, mühitə uyğunlaşma, psixoloji sağlamlıq və daha yaxşı yaşamaq üçün vacibdir. Bu üç ehtiyac aşağıdakılardan ibarətdir: 1) ləyaqət hissi: hər hansı fəaliyyət və tapşırığı ləyaqətlə yerinə yetirə bilmək; 2) müstəqillik hissi: öz davranışları və onların nəticəsinə təsir etmə qabiliyyəti və onlara nəzarət səlahiyyətinə malik olmaq; 3) bağlılıq və sədaqət hissi: başqaları tərəfindən qəbul edilmə və müsbət qarşılanma. Əgər insanların bu üç əsas ehtiyacı təmin olarsa, onlarda özünə inam və özünə verdiyi qiymət yüksək olacaq və onlar psixoloji baxımdan daha sağlam və daha yaxşı yaşamağa səy göstərmiş olacaqdır. Beləliklə, deyilənləri ümumiləşdirsək, deyə bilərik ki, motivasiya insanların davranış səbəblərini aşkara çıxarır və onların fəaliyyət formasını müəyyən edir. Motivasiyadan qaynaqlanan davranış məqsədyönlü, davamlı və daha həvəslə həyata keçən davranış olur.

Dissertasiyanın "**Uşaqlarda təhsil motivasiyasının inkişafı və ona təsir edən amillər**" adlanan II fəsli iki yarımfəsildən ibarətdir.

Dissertasiyanın "**Şəxsi motivlər və onların nəzəri təhlili"** adalanan II fəslinin birinci yarımfəslində şəxsi motivlər və onların nəzəri-psixoloji təhlili, eləcə də təhsil motivasiyasına təsir edən sosial-psixoloji amillər təhlil edilir. Bu yarımfəsildə qeyd olunur ki, təlim üzrə ekspertlərin müşahidələrinə əsasən şagirdlər istedad və öyrənmə qabiliyyəti baxımdan oxşar olsalar da təhsil fəaliyyəti və nailiyyətləri baxımdan fərqli olurlar və onların təhsil davranışı fərqli olur. Burada göstərilir ki, Mak Kollendin ilkin tədqiqatlarından sonra motivasiyanın mahiyyəti və inkişafa təsirini öyrənmək üçün həyata keçirilən tədqiqatların həcmi xeyli artmışdır. Bu tədqiqatlarda inkişaf motivasiyası güclü olan insanların fərdi xüsusiyyətləri və xarakterik cəhətləri öyrənilərək onların hansı davranış üsullarına və hansı fəaliyyət metodlarına üstünlük verməsi müəyyən edilmişdir.

Uşaqlarda motivasiyanın formalaşdırılmasında özünəməxsus yanaşma tərzi olan biheviorial yanaşmada mükafatlandırma və cəzalandırma şagirdlərin motivasiyasına təsir edən əsas amil kimi təhlil edilir. Belə ki, mükafatlar, cəzalar, xarici stimullar, müsbət və yaxud mənfi hadisələr şagirdin davranışını motivitə edirlər. Humanist yanaşmada şagirdin şəxsiyyət

baxımından inkişaf etmək qabiliyyətinə, seçim sərbəstliyinə və müsbət cəhətlərinə diqqət yetirilir. Bu yanaşma Abraham Maslonun konsepsiyasına olduqca yaxındır. Maslonun fikrincə, yüksək səviyyəli tələbatlardan əvvəl ilkin tələbatlar ödənilməlidir. Məsələn, bir şagirdin inkişafa olan tələbatından əvvəl onun qidaya olan tələbatı ödənilməlidir.

Koqnitiv yanaşmaya əsasən şagirdlərin düşüncə və idrakı onların motivasiyasını istiqamətləndirir. Son illərdə koqnitiv yanaşmanın tərəfdarlarının fikrincə şagirdlərin daxili motivasiyası onların özləri haqda təsəvvürlərinə, istinad etdikləri təcrübələrə və həmçinin ətrafda baş verənlərə nəzarət etmək gücünə malik olmaqlarına dair inamlarına əsaslanır. Koqnitiv yanaşmada məqsədin müəyyənləşməsi, planlaşdırma və inkişaf üçün cəhd ciddi əhəmiyyət kəsb edir.

Buradan belə bir nəticəyə gəlmək olar ki, biheviorial yanaşmada xarici stimulların motivasiyanın əsas amili kimi təhlil edilməsinə baxmayaraq koqnitiv yanaşmada xarici təzyiq və stimullara təkid etmək tövsiyə edilmir. Koqnitiv yanaşmada şagirdlərə daha çox şans vermək tövsiyə edilir. Çünki onlara daha çox şans verməklə onlar öz davranışlarının nəticəsinə görə məsuliyyət daşıdıqlarını dərk edəcəklər.

Dissertasiyanın "**Təhsil motivasiyasına təsir edən sosial-psixoloji ailədaxili amillər**" adlanan II fəslinin ikinci yarımfəslində təhsil motivasiyasına təsir göstərən amillər sistemləşdirilir və təhlil edilir. Bu yarımfəsildə qeyd edilir ki, təhsil motivasiyasının öyrənmək fəaliyyət üçün çox vacib bir amildir. Bu motivasiya fəaliyyəti istiqmətləndirir və intensivləşdirir, həmçinin öyrənmə prosesini davam etdirməkdə şagirdlərə kömək edir. Başqa sözlə motivasiya öyrənən subyektə enerji verir və onun fəaliyyətini istiqamətləndirir.

Qeyc və Berlayner (1996) motivasiyanı avtomobil mühərrikinə oxşadır və hesab edir ki, bu mühərrik insanları müəyyən məqsədlərə çatmaq üçün fəaliyyətə vadar edir. Lefranso (1997) isə motivasiyanı davranışın səbəbi hesab edir.

Kist və Koul öz tədqiqatlarında belə bir faktı aşkar etmişdirlər ki, yüksək təhsil motivasiyasına malik olan insanlar daha çox fəaliyyət göstərib və daha çox tapşırıqlar yerinə yetirirlər. Nəticə etibarı ilə onlar daha çox nailiyyətlər əldə edirlər. Blom motivasiya ilə inkişaf arasında müsbət əlaqənin olduğunu müəyyən etmişdir. Hafman öz tədqiqatlarında yoxsulluq, iqtisadi məhrumiyyət, valideynin diqqətsizliyi, ailənin böyüklüyü və üzvlərin çoxluğu, ailə strukturunun normal olmaması və digər bu kimi amilləri təhsil motivasiyasının zəifləməsinin səbəbi kimi göstərmişdir. O, belə bir nəticəyə gəlmişdir ki, fəhlə təbəqəsi təhsilə kifayət qədər əhəmiyyət vermir və təhsili fərdi inkişafa aparan vasitə kimi qəbul etmir.

Loyenderin (1985) fikrincə, motivasiya öyrənmənin əsas vasitələrindən

biridir. Yəni insanın təhsil və öyrənməyə həvəsi yüksək olduqca bu sahədə inkişaf ehtimalı daha yüksək olur. Məsələn, əgər şagird yüksək təhsil motivasiyasına malik olarsa verilən tapşırıqlara daha ciddi yanaşıb və auditoriyada öyrəndikləri ilə kifayətlənməyib daha artıq məlumat almağa çalışacaqdır.

Bu yarımfəsildə qeyd olunur ki, inkişaf tələbatı ən çox öyrənilən motivlərdən biridir. İnkişaf tələbatı yüksək olan insanlar daha çox nailiyyət qazanmaq və kamilləşmək üçün meylli olub öz davranışlarını islah etməyə çalışırlar. Onlarda məsuliyyət hissi güclü olur, öz vəzifə borclarına həssas yanaşırlar. Daha çox diqqət cəlb edən işlərə həvəsli olurlar və başqalarının inkişaf səviyyəsi ilə müqayisədə daha üstün olan nəticələr əldə etməyə çalışırlar. Başqa sözlə inkişaf vəzifəyə əsaslanan davranış növüdür ki, insan fəaliyyətini daxili və yaxud xarici normalara nəzərən qiymətləndirməyə imkan verir. İnkişaf motivasiyasını bir çox fəaliyyətlər zamanı (məsələn, müxtəlif peşə fəaliyyətlərində, məktəbdə, oyunlar və idman növlərində) müşahidə etmək olar.

Motivasiyanı fəaliyyət mühiti ilə əlaqələndirən əhəmiyyətli tədqiqatlardan biri Pinteriç və Doqorotun həyata keçirdiyi tədqiqatlardır (1990). Bu iki alimin fikrincə motivasiya ilə mühit arasındakı əlaqə üç üsulla mümkün olur:

- Şagirdin tapşırıqları yerinə yetirmək üçün istinad etdiyi səbəblər.
- Şagirdin tapşırıqları həyata keçirmək üçün bacarıq və qabiliyyətə malik olmasına dair təsəvvürləri.
- Şagirdin tapşırıqlara qarşı emosional reaksiyaları (məsələn, əsəbiləşmə, həyəcan, qürur hissi, utanmaq və günahkarlıq hissi və s.).

Battl (1964-1965) hesab edir ki, motivasiya ən yüksək göstəricilərə istinadən öz fəaliyyətini qiymətləndirmək meylindən, həmçinin nailiyyət və nailiyyətdən həzz almaq istəyindən qaynaqlanır. Şagirdlərin təhsildə inkişaf motivasiyası müxtəlif səviyyələrdə olur. Məsələn, inkişafa tələbatı yüksək olan şagirdlər tələbatı zəif olan şagirdlərlə müqayisədə dərsə və təhsil fəaliyyətinə, həmçinin yüksək qiymətlər almağa daha maraqlı olurlar.

Təhsildə inkişaf motivasiyası şagirdin öyrənməsi və məktəbdə inkişafı ilə nəticələnən davranışlarına deyilir. İnkişaf motivasiyası müxtəlif amillərlə əlaqədar ola bilər. Burada məktəbin və sosial mühitin xarakterik cəhətləri daha çox əhəmiyyət kəsb edir. Bütün deyilənlərə nəzərən belə bir nəticə çıxarmaq olar ki, bəzən daxili və xarici motivasiya əks qütblər kimi təhlil edilməməlidir və həmişə onların arasında əks asılılıq olmur.

Dissertasiyanın III fəsli "**Tədqiqatın təşkili, keçirilməsi və alınmış nəticələrin təhlili**"nə həsr edilmişdir.

Dissertasiyanın III fəslinin **"Tədqiqatın təşkili və keçirilməsi"**adlanan birinci yarımfəslində tədqiqatın metodları, tədqiqatda iştrak edənlərin say

tərkibi və s. kimi məsələlər diqqət mərkəzinə gətirilir. Bu yarımfəsildə verilənlərin təhlili, statistik-təsviri ilə yanaşı dinamika və istiqaməti müəyyənləşdirmək məqsədi ilə dəyişənlər arası əlaqə də öyrənilmişdir. Bütün bunlar statistik təhlil proqramları olan SPSS və VER-19 vasitəsi ilə həyata keçirilimişdir.

Tədqiqat 2013-cü ildə Bakı şəhərinin 12 rayon təhsil şöbəsinin nəzarətində fəaliyyət göstərən məktəblərdə təhsil alan 6-cı, 7-ci və 8-ci sinif şagirdlərinin iştrakı ilə keçirilmişdir. Tədqiqatda Bakı şəhərinin orta məktəblərində təhsil alan 84930 şagirddən 285 nəfəri qrup seçmə üsulu vasitəsi ilə seçilmiş və sorğuya cəlb edilmişdir. Anketdə sosial-iqtisadi vəziyyəti ölçmək məqsədi ilə 5 əsas dəyişən (atanın təhsil səviyyəsi və peşə vəziyyəti, ananın təhsil səviyyəsi və peşə vəziyyəti, ailənin gəlir səviyyəsi) haqqında da suallar da verilmişdir.

Dissertasiyanın III fəslinin üçüncü yarımfəsli **"Alınmış nəticələrin təhlili"** adlanır. Burada sosial-iqtisadi amillərin təsirini öyrənmək üçün beş dəyişəndən (ailənin gəlir səviyyəsi, atanın peşəsi və təhsil səviyyəsi, ananın peşəsi və təhsil səviyyəsi) istifadə edilmişdir. Bu dəyişənlərin qiyməti 5-25 arasında ola bilər və cədvəl 3.1-dən də göründüyü kimi minimum 5 və maksimum 23, orta qiymət isə 14.04 olmuşdur. Öyrənilən göstəricilər və orta qiymətə nəzərən demək olar ki, şagirdlərin sosial-iqtisadi vəziyyəti orta səviyyədən nisbətən aşağıdır.

Ailədaxili amillərin motivasiyaya təsirini öyrənmək üçün altı sualdan istifadə edilmişdir və nəticələr cədvəl 3.2-də verilmişdir. Bu dəyişənlərin minimum 12 və maksimum 30, orta qiymət isə 24.35 olmuşdur. Öyrənilən dəyişənlər üçün əldə edilmiş orta qiymətə nəzərən demək olar ki, ailədaxili amillər olduqca əlverişlidir və yaradılmış şərait orta səviyyədən daha yüksəkdir. Bütün bunlar isə şagirdin inkişaf motivasiyasına müsbət təsir edir.

Uşaqların motivasiyasına təsir edən sosial-iqtisadi amillərin göstəriciləri

*Cədvəl 3. 1*

| | Say | Minimum | Maksimum | Orta | Standart deviasi-ya | Normadan yayınma | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | Miq-dar | Standart deviasiya |
| Sosial-iqtisadi amillər | 247 | 5.00 | 23.00 | 14.0648 | 3.27529 | 0.058 | 0.155 |

Ailədaxili amillərin motivasiyaya təsirinin göstəriciləri

*Cədvəl 3. 2*

| | Say | Mini-mum | Maksi-mum | Orta | Standart deviasiya | Normadan yayınma | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | Miqdar | Standartd eviasiya |
| Ailədaxili amillər | 281 | 12.00 | 30.00 | 24.3452 | 3.17440 | -0.390 | 0.145 |

Məktəbdaxili amillərin motivasiyaya təsirinin göstəriciləri

*Cədvəl 3. 3*

| | Say | Mini-mum | Maksi-mum | Orta | Standart deviasiya | Normadan yayınma | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | Miqdar | Standart deviasiya |
| Məktəb daxili amillər | 280 | 16.00 | 35.00 | 27.8286 | 3.16668 | -0.157 | 0.146 |

Məktəbdaxili amillərin motivasiyaya təsirini öyrənmək üçün 7 sualdan istifadə edilmiş və həmin suallara aid nəticələr cədvəl 3.3- də verilmişdir. Cədvəl 3.3-dən göründüyü kimi minimum qiymət 16 və maksimum qiymət 35 olmuşdur. Yəni təhsil mühitindəki şərait (dərs və tədris vəsaiti, müəllimlərin tədris üsulları və s.) mövcud standartlara əsasən orta səviyyədən yüksəkdir.

Şagirdlərdə həyəcanın səviyyəsinin göstəriciləri

*Cədvəl 3. 4*

| Həyəcanın səviyyəsi | Tezlik | Faiz |
|---|---|---|
| Həyacanın olmamsı | 96 | 33.7 |
| Yüngül həyacan | 86 | 30.2 |
| Orta həyacan | 63 | 22.1 |
| Güclü həyacan | 36 | 12.6 |
| Cavabsız | 4 | 1.4 |
| Cəmi | 285 | 100.0 |

Cədvəldə 3.4 –dən göründüyü kimi şagirdlərin 33.7 faizində ümumiyyətlə depressiya əlamətləri yoxdur, 30.2 faizində yüngül depressiya əlamətləri, 22.1 faizində orta və 12.6 faizində güclü depressiya əlamətləri vardır.

Hermansın inkişaf motivasiyasi anketinin statistik təsviri

*Cədvəl 3.5*

| | Say | Mini-mum | Maksi-mum | Orta | Standart deviasiya | Normadan yayınma (skewness) | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | Miqdar | Standart deviasiya |
| Məktəb daxili amillər | 280 | 71.00 | 113.00 | 90.8786 | 7.30146 | -0.090 | 0.146 |

Cədvəl 3.5-də Hermansın inkişaf motivasiyasi anketində öyrənilmiş dəyişənlərin statistik təsviri verilmişdir. Göründüyü kimi bu dəyişənlərə aid qiymətlər 29-116 arası olmalıdır ki, burada minimum qiymət 71, maksimum qiymət 113 və bunların orta qiyməti isə 90.88 olmuşdur. Bütün bunlara nəzərən demək olar ki, sorğuda iştirak edən şagirdlər yüksək inkişaf motivasiyasına malikdirlər.

Cədvəl 3.6-dan göründüyü kimi, korrelyasiya əmsalı miqdarı 0.239 və P<0.000 olmuşdur. Bu da dəyişənlər arasında ciddi əlaqənin olduğunu sübut edir. Yəni hesablama zamanı yol verilə bilən səhv 0.05-dən az olub və əldə edilən nəticəyə əsasən ailədəxili amillərlə şagirdin inkişaf motivasiyası səviyyəsi arasında ciddi əlaqə mövcuddur

Ailədaxili amillərlə inkişaf motivasiyası arasında
korrelyasiya əmsalı

*Cədvəl 3. 6*

| | Ailədaxili amillər | İnkişaf motivasiyası |
|---|---|---|
| Ailədaxili amillərin Pirson korrelyasiya əmsalı | 1 | 0.239 (**) |
| Əlaqə səviyyəsi | | 0.000 |
| Say | 281 | 276 |
| İnkişaf motivasiyasının Pirson korrelyasiya əmsalı | 0.239 (**) | 1 |
| Əlaqə səviyyəsi | 0.000 | |
| Say | 276 | 281 |

Qeyd: ** 0.01 səviyyəsində 2 tərəfli aslılığı göstərir.

Sosial-iqtisadi amillərlə inkişaf motivasiyası arasında korrelyasiya əmsalı

*Cədvəl 3.7*

| | Sosial-iqtisadi amillər | İnkişaf motivasiyası |
|---|---|---|
| Sosial-iqtisadi amillərin Pirson korrelyasiya əmsalı | 1 | 0.051 |
| Əlaqə səviyyəsi | | 0.432 |
| Say | 247 | 244 |
| İnkişaf motivasiyasının Pirson korrelyasiya əmsalı | 0.051 | 1 |
| Əlaqə səviyyəsi | 0.432 | |
| Say | 244 | 247 |

Cədvəl 3.7-dən göründüyü kimi, korrelyasiya əmsalı miqdarı 0.432 və $P>0.05$ olmuşdur ki, bu da dəyişənlər arasında əlaqənin olmadığını göstərir. Yəni əldə edilən nəticəyə əsasən sosial-iqtisadi amillərlə şagirdin inkişaf motivasiyası səviyyəsi arasında ciddi əlaqə mövcud deyil.

Məktəbdaxili amillərlə inkişaf motivasiyası arasında korrelyasiya əmsalı

*Cədvəl 3.8*

| | Məktəbdaxili amillər | İnkişaf motivasiyası |
|---|---|---|
| Məktəbdaxili amillərin korrelyasiya əmsalı | 1 | 0.342 (**) |
| Əlaqə səviyyəsi | | 0.000 |
| Say | 280 | 276 |
| İnkişaf motivasiyasının korrelyasiya əmsalı | 0.342 (**) | 1 |
| Əlaqə səviyyəsi | 0.000 | |
| Say | 276 | 280 |

Qeyd:** 0.01 səviyyəsində 2 tərəfli aslılığı göstərir.

Cədvəl 3.8-dən göründüyü kimi, korrelyasiya əmsalı miqdarı 0.342 və $P<0.001$olmuşdur ki, bu da dəyişənlər arasında ciddi əlaqənin olduğunu sübut edir. Yəni hesablama zamanı yol verilə bilən səhv 0.05-dən az olub və əldə edilən nəticəyə əsasən məktəbdaxili amillərlə şagirdin inkişaf motivasiyası səviyyəsi arasında ciddi əlaqə mövcuddur.

Depressiya səviyyəsi ilə inkişaf motivasiyası arasında korrelyasiya əmsalı

*Cədvəl 3. 9*

| | Depressiya | İnkişaf motivasiyası |
|---|---|---|
| Depressiya səviyyəsinin Pirson korrelyasiya əmsalı | 1 | -0.0206 (**) |
| Əlaqə səviyyəsi | | 0.001 |
| Say | 281 | 278 |
| İnkişaf motivasiyasının Pirson korrelyasiya əmsalı | -0.206 (**) | 1 |
| Əlaqə səviyyəsi | 0.001 | |
| Say | 278 | 281 |

Qeyd:** 0.01 səviyyəsində 2 tərəfli aslılığı göstərir.

Cədvəl 3.9-dan də göründüyü kimi, korrelyasiya əmsalı miqdarı -0.206 və P=0.001olmuşdur ki, bu da dəyişənlər arasında ciddi əlaqənin olduğunu sübut edir. Yəni əldə olunmuş nəticəyə əsasən şagirdin depressiya səviyyəsi ilə inkişaf motivasiyası səviyyəsi arasında ciddi əlaqə mövcuddur.

Depressiya və cinsi xüsusiyyətlər arasında korrelyativ əlaqə

Cədvəl 3.10

| | Levene-Test | | T-Test | | | |
|---|---|---|---|---|---|---|
| | F | Əlaqə səviyyəsi | t | N-1 | Əlaqə səviyyəsi | Orta qiymətlər arasında fərq |
| Bərabər variasiyalar | 1.007 | 0.317 | -1.531 | 279 | 0.127 | -1.91147 |
| Qeyri-bərabər variasiyalar | | | -1.529 | 274.881 | 0.128 | -1.91147 |

Əldə edilmiş nəticələrə (t=1.53 və p=0.13) əsasən oğlan və qızlar arasında depressiya səviyyəsinə görə ciddi bir fərq müşahidə edilmədi və demək olar ki, cinsi xüsusiyyətlərdən asılı olmayaraq depressiya səviyyəsi hər iki qrupda eynidir.

İnkişaf motivasiyası və cinsi xüsusiyyətlər arasında korrelativ əlaqə

*Cədvəl 3. 11*

| | Levene-Test | | T-Test | | | |
|---|---|---|---|---|---|---|
| | F | Əlaqə sə-viyyəsi | t | N-1 | Əlaqə səviyyəsi | Orta qiymətlər arasında fərq |
| Bərabər variasiyalar | 4.611 | .033 | -1.738 | 278 | 0.83 | -1.51112 |
| Qeyri-bərabər variasiyalar | | | -1.733 | 266.607 | 0.084 | -1.51112 |

Əldə edilmiş nəticələrə (t=1.73 və p=0.08) əsasən oğlan və qızlar arasında inkişaf motivasiyasi səviyyəsinə görə ciddi bir fərq müşahidə edilmədi və demək olar ki, cinsiyyətdən asılı olmayaraq inkişaf motivasiyası səviyyəsi hər iki qrupda eynidir.

Depressiya ilə təhsil səviyyəsi arasında əlaqə (ANOVA testinin nəticələri)

*Cədvəl 3. 12*

| | Say | Orta rəqəm | Standart deviasiya | Minimum | maksimum |
|---|---|---|---|---|---|
| 6-cı sinif | 87 | 13.0575 | 10.11487 | 0.00 | 50.00 |
| 7-ci sinif | 103 | 11.7476 | 9.53191 | 0.00 | 44.00 |
| 8-ci sinif | 91 | 15.2747 | 11.60657 | 0.00 | 50.00 |
| Cəmi | 281 | 13.2954 | 10.48783 | 0.00 | 50.00 |

Əldə edilmiş nəticələrə (F=2.80 və p=0.06) əsasən müxtəlif siniflərdə təhsil alan şagirdlər arasında depressiya səviyyəsinə görə ciddi bir fərq müşahidə edilmədi və demək olar ki, təhsil səviyyəsindən asılı olmayaraq depressiya səviyyəsi şagirdlər arasında eynidir. Nəticə etibarı ilə demək olar ki, şagirdin aşağı yaxud yuxarı sinifdə təhsil alması onun depressiya səviyyəsinə təsir edən amil deyildir.

İnkişaf motivasiyası ilə təhsil səviyyəsi arasında korrelyativ əlaqə

*Cədvəl 3. 13*

| | Kvadratlar məcmusu | N-1 | Kvadratların orta qiyməti | F | Əlaqə səviyyəsi |
|---|---|---|---|---|---|
| Qruplararası | 70.709 | 2 | 35.354 | 0.662 | 0.517 |
| Qruplardaxili | 14803.163 | 277 | 53.441 | | |
| Cəmi | 14873.871 | 279 | | | |

Əldə edilmiş nəticələrə (F=0.662 və p=0.52) əsasən müxtəlif siniflərdə təhsil alan şagirdlər arasında inkişaf motivasiyası səviyyəsinə görə ciddi bir fərq müşahidə edilmədi və demək olar ki, təhsil səviyyəsindən asılı olmayaraq inkişaf motivasiyası səviyyəsi şagirdlər arasında eynidir.

Məktəbdaxili amillərlə depressiya səviyyəsi arasında korrelyativ əlaqə

*Cədvəl 3. 14*

| | | Məktəbdaxili amil | Depressiya |
|---|---|---|---|
| Ailədaxili amillər | Pierson korrelyasiya əmsalı | 1 | -0.0201** |
| | Əlaqə səviyyəsi | | 0.001 |
| | Say | 280 | 278 |
| Depressiya | Pierson korrelyasiya əmsalı | -0.201** | 1 |
| | Əlaqə səviyyəsi | 0.001 | |
| | Say | 278 | 281 |

Qeyd:** 0.01 səviyyəsində 2 tərəfli asılılığı göstərir.

Cədvəl 3.14-dən göründüyü kimi, korrelyasiya əmsalı -0.201 və $P<0.001$səviyyəsindədir ki, bu da iki dəyişən arasında əlaqənin mövcudluğunu göstərir.

Apardığımız eksperimentlər və ədəbiyyatın nəzərəi təhlili aşağıdakı **nəticəyə** gəlməyə imkan verir:

- Ailədaxili amillərin müsbət istiqamətdə inkişafı şagirdlərdə motivasiya səviyyəsinin yüksəlməsi ilə nəticələnir.

-Məktəbdaxili amillərlə şagirdlərin motivasiyası arasında əlaqə mövcuddur və bu əlaqə əhəmiyyətli olduğu üçün demək olar ki, iki dəyişən arasında ciddi əlaqə mövcuddur. Deməli məktəbdaxili amillərin müsbət istiqamətdə inkişafı şagirdlərdə motivasiya səviyyəsinin yüksəlməsi ilə

nəticələnir.

- Depressiya və şagirdlərin motivasiyası səviyyəsi arasında əlaqə mövcuddur və bu əlaqə əhəmiyyətli olduğu üçün demək olar ki, iki dəyişən arasında ciddi əlaqə mövcuddur. Lakin bu iki dəyişən arasındakı əks mütənasiblik əlaqəsi mövcuddur. Yəni depressiyanın yüksək səviyyədə olması motivasiyanın zəifləməsinə səbəb olur və bunun əksi də doğrudur.

- Aydın olmuşdur ki, depressiya səviyyəsi və inkişaf motivasiyası səviyyəsinə görə qızlar və oğlanlar arasında fərq yoxdur. Yəni cinsi xüsusiyyətlər dəyişəni ilə qeyd edilən iki dəyişən arasında əlaqə mövcud deyil. Eyni zamanda təhsil səviyyəsi (neçənci sinifdə oxuması) ilə depressiya və inkişaf motivasiyası səviyyəsi arasında əlaqə müşahidə edilməmişdir və müxtəlif siniflərdə oxuyan şagirdlər arsında ciddi bir fərq yoxdur.

- Tədqiqat göstərdi ki, depressiv vəziyyətlə sosial-iqtisadi və ailədaxili amillər arasında əlaqə mövcud olmadığı halda, depressiya ilə məktəbdaxili amillər arasında ciddi əlaqə mövcuddur. Belə ki, məktəbdaxili amillərin müsbət istiqamətdə inkişafı depressiyanın azalmasına səbəb ola bilir.

- Şagirdlərin inkişaf motivasiyası baxımdan vəziyyətinin öyrənilməsi göstərir ki, onlarda inkişaf motivasiyası orta səviyyədən daha yüksəkdir və bu dəyişənlə bağlı əldə edilmiş orta qiymət şagirdlərdə həvəssizlik və motivasiyasızlıq demək olar ki, olduqca aşağıdır.

- Müəyyən edildi ki, inkişaf motivasiyası ilə psixoloji amillər (burada iztirab amili öyrənilib) arasında tərs mütənasiblik əlaqəsi var və bu əlaqə güclüdür. Belə ki, iztirab azaldıqca inkişaf motivasiyası yüksəlir.

- Ailədaxili amillərlə inkişaf motivasiyası arasındakı əlaqənin təhlili göstərir ki, bu iki dəyişən arasında ciddi əlaqə mövcuddur. Yəni ailədaxili şərait uyğun olduqda şagirdlərin inkişafa təhsil zəminində meyli və motivasiyası yüksək olur.

-Müəyyən edildi ki, məktəbdaxili amillərlə inkişaf motivasiyası arasında ciddi əlaqə vardır. Eyni zamanda məktəbdaxili amillərlə depressiya arasında da əlaqə mövcuddur. Beləki, təhsil mühitinin standartlara uyğun olması, dərs vəsaiti və tədris üçün lazımı şəraitin olması, həmçinin tədris metodlarının yaxşılaşdırılması şagirdlərdə depressiyanın azalmasına səbəb olur.

- Dəyişənlərin təhlili göstərir ki, depressiya ilə ailədaxili və sosial-iqtisadi amillər arasında əlaqə mövcud deyil. Eyni zamanda təhsil səviyyəsi (şagirdin neçənci sinifdə olması) ilə inkişaf motvasiyası arasında əlaqə müşahidə edilmədi və şagirdlərin neçənci sinifdə oxumasından asılı olmayaraq onlarda inkişaf motivasiyası eynidir.

Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı **əsərlərində** öz əksini tapmışdır:

1. Motivasiya sisteminin inkişaf xüsusiyyətləri və onun şagirdlərin təhsil fəaliyyətinə təsiri //Psixologiya jurnalı, Bakı, 2012, №2, s. 132-139.

2. Considering the relarianship between family traits and students' academic Achievement motivation // Bilimsel Eksenç, Ankara, 2012, №3,, s. 107-114.

3. Şagirdlərin təhsildə nailiyyət movasiyasına təsir edən amillərin təhlili // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2013, №1, s. 134-138.

4. Motivasiyanın yaranmasında, uşaqların tərbiyəsində və ailənin möhkəmlənməsində dini təlimlərin rolu / Akademik Vasim Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransı. Bakı: Çar evi, 2013, s. 523-524.

5. Harter şkalasının etibarlıq və doğruluğunu ölçümə və uşaqlarda motivasiyanı ölçmək üçün həmin şkaladan istifadə üsulu // Bakı Dövlət Universitetinin ilahiyyat fakültəsinin Elmi məcmuəsi, Bakı, 2013, №19, s.263-271.

6. The Historical Context of Motivation and Analysis Theories Individual Motivation // Intertational Journal of Humanities and Social Science, Vol. 3, № 18, 2013, p.240-247.

7. Problems of personal motivation // Вектор науки, Тольятти, 2013, № 4(15), с.139-141.

**Pakdel Behnaz Asadullah**

**Psychological characteristics of the child motivation of development**

**Summary**

The thesis is dedicated to one of the modern problems of general psychology which is the learning of “psychological features of child motivation development.

The recent reforms in education system, the integration of the education system to the world education created a necessity to bring to the focus of attention the psychological features of child motivation system development.The facts show that the development of motivation creates the basis for formation of children as a personality and the formation of the system of values.

The topicality of the research, working level, the hypothesis, its scientifico-theoretical importance, and scientific innovation, including, its methodological bases are formulated in the introduction of the thesis.

The I chapter of the thesis named **“Motivation system in children and their research directions”** consists of two subchapters. The motivation is studied in the context of four main factors such as situation, mental status, purpose and device, as a natural phenomenon. It is noted that the motives to gradute successfully, to achieve aims, and to increase the necessary scientific level at students and children predominates so that it appears as an instigating factor while achieving the goal. The theories of motivation are analyzed and systematized in this chapter.

The II chapter of the thesis is named **“The development of educational motivation in children and the factors impacting it and consists of two subchapters”.** The personal motives and their social-psychological anaylsis, as well as the social-psychological intrafamily factors impacting on the educational motivation are brought to the focus of attention. Here it is shown that for the people having high development of motivation and the work with group doesn’t influence to their want of development.

The III chapter is named **“Organization, holding of research and analysis of results obtained and consists of subchapters”.** As a result of the experiment, it is determined that the presence of the relation between school fators and development of motivation of pupils allows to say that while the school condition improves (the condition of educational environment and complying with standards, text book and training aids, teaching methods of teachers), the development of motivation of students also strengthens and has the dynamics of promotion.

To conclude, the **results** of the study reveal that the features of children motivation development plays a crucial role in intrafamily factors besides several factors.

**Пакдель Бехназ Асадуллах**

**«Психологические особенности развития мотивации у детей»**


**Резюме**

Диссертационная работа посвящена одной из современных проблем общей психологии – изучению психологических особенностей развития мотивации у детей.

Реформы, проводимые в последнее время в образовательной системе, интеграция образовательной системы республики в мировую, создали необходимость обратить особое внимание на психологические особенности развития мотивации у детей. Факты свидетельствуют, что развитие мотивации создает предпосылку для формирования ребенка как личности.

Во введении диссертации сформулированы актуальность исследования, уровень разработки, гипотезы, методологические основы, научно-теоретическое значение и научная новизна исследования.

I Глава диссертации, называемая «**Мотивационная система у детей и направления ее исследования**» состоит из двух подглав. Здесь мотивация, как естественный феномен, исследуется в контексте четырех основных факторов – ситуация, психическое состояние, цель и средство. Отмечается, что адекватная мотивация у студентов и учащихся, создает определенные преимущества в успешности учебной деятельности, повышении научного уровня, выступая как побуждающий фактор в достижении поставленных целей. В данной главе анализируются и систематизируются мотивационные теории.

II Глава диссертации называется «**Развитие учебной мотивации у детей и факторы, оказывающие на нее влияние**» и состоит из двух подглав. В центре внимания данной главы находятся личные мотивы и их теоретико-психологический анализ, а также, социально-психологиические, внутрисемейные факторы, влияющие на учебную мотивацию. В главе отмечается, что для людей с повышенной мотивацией развития, вознаграждение не имеет особого значения и работа с группой не оказывает влияние на их склонность к развитию.

III Глава диссертации называется **«Организация, проведение исследования и анализ полученных результатов»** и состоит из двух подглав. В результате проведенного эксперимента установлено наличие связи между внутришкольными факторами и мотивацией развития у

учеников. Это дает основание сказать, что с улучшением внутришкольного состояния (состояние учебной среды, соответствие стандартам учебных пособий и средств обучения, методы обучения преподавателей), усиливается развитие мотивации, то есть наблюдается устойчивая динамика к повышению показателей.

В **заключительной** части диссертации полученные результаты исследования были систематизированы. В итоге получен следующий вывод, что во внутрисемейных отношениях, наряду с другими факторами, важную роль играют особенности развития мотивации у детей.

Sifariş N 25; tiraj 100
“Ecoprint” nəşriyyatının mətbəəsində
çap olunmuşdur

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Бехназ Асадуллах Пакдел**

# Психологические особенности развития мотивации у детей

**6107.01. – Общая психология**

**Автореферат**

**диссертации на соискание ученой степени доктора философии по психологии**

**Баку – 2 0 16**